**UOT: 78.031.4**
**https://doi.org/10.59849/2311-8482.2025.1.205**

**AYGÜL ƏHMƏDOVA***

# AZƏRBAYCANIN QARABAĞ BÖLGƏSİNİN TARİXİ-MƏDƏNİ KONTEKSTDƏ TƏDQİQİ

*Azərbaycanın Qarabağ bölgəsinin inkişafı, mədəniyyəti, tarixinin tədqiqi hər zaman diqqət mərkəzində olan məsələlər sırasına daxildir. Coğrafi və iqtisadi baxımdan əlverişli mühitə malik olan Azərbaycanın Qarabağ bölgəsi eyni zamanda musiqi mədəni mühitinin də zənginliyi ilə diqqəti cəlb edir. Həmçinin, musiqi folkloru baxımından Qarabağ bölgəsi çox zəngindir. Burada müxtəlif musiqi janrlarının inkişafı tədqiqatçıların Qarabağa olan diqqətini artırır. Qarabağın musiqi mədəni mühitinin təkamül prosesinin tədqiqi, onun ifaçılıq sənətinə təsiri müxtəlif rakurslardan araşdırılarkən yeni-yeni faktlar tədqiqatçıların diqqətini cəlb edir. Məhz bu cəhətdən hazırki məqalədə biz Azərbaycanın Qarabağ bölgəsinin tarixi və mədəni intişar prosesini izləməyə çalışmışıq.*

***Açar sözlər:*** *Azərbaycan, Qarabağ, tarix, etnoqrafiya, mədəniyyət, musiqi, folklor, janr*

## Giriş

Füsünkar təbiəti, əlverişli coğrafi şəraiti, mədəniyyət abidələrinin zənginliyi, siyasi-iqtisadi və mədəni tarixi olan Azərbaycanın Qarabağ bölgəsi dünyanın ən qədim yaşayış məskənlərindən biri sayılır. Qədim dövrlərdən bugünədək mənfur düşmənlərin hədəf nöqtəsi olan Qarabağ öz ecazkar gözəlliyini bu gün də qoruyub saxlamışdır. Bu diyar daim öz yeraltı və yerüstü sərvətlərinin zənginliyi ilə yadellilərin diqqətini cəlb etmişdir. Azərbaycanın Qarabağ bölgəsi 30 ilə yaxın müddət ərzində işğal altında olmuşdur. Təəssüflə qeyd edirik ki, ermənilərin Azərbaycana təcavüzü nəticəsində ərazimizin 20 faizi ilə bərabər bir milyondan artıq soydaşımız öz yurd-yuvalarından qaçqın düşmüş, məcburi-köçkün həyatı yaşamış, qiymətli mədəni sərvətlərimiz də etməni terroruna məruz qalmışdır.

Erməni işğalçılarının durmadan milli-mənəvi və qeyri-maddi mədəniyyət nümunələrini mənimsəməsi, xalq musiqimizi özününkü kimi təqdim etməsi bu gün də davam edir. Məhz bu səbəbdən bütün Azərbaycan xalq musiqi nümunələrinin, xüsusi olaraq da uzun illər ərzində işğal edilmiş Qarabağ bölgəsi üzrə toplanılması, araşdırılması və təbliği xüsusi aktuallıq kəsb edir. Bu gün Qarabağın tarixinin, etnoqrafiyasının, sosial-iqtisadi vəziyyətinin, mədəniyyətinin eyni zamanda autentik musiqi folklorunun bütün janr rəngarəngliyi və üslub zənginliyi ilə öyrənilməsi, tədqiqi Azərbaycan etnomusiqişünaslığının qarşısında duran ümdə vəzifələrdən biridir.

## Əsas məzmun

Azərbaycanın Qarabağ bölgəsinin ən qədim yaşayış məskənlərindən hesab edilməsi - bu bölgədə Füzuli rayonu ərazisində yerləşən Azıx mağarasının olması ilə səciyyələnir. Qarabağda tarixən insanların məskən salaraq yaşamasına onların həyat fəaliyyətləri üçün vacib olan zəngin münbit torpaqların bolluğu zəmin yaratmışdır. Burada erkən tunc və dəmir dövrləri – Quruçay mədəniyyəti (paleolit dövrü), Kür-Araz (ilk tunc dövrü), Üzərliktəpə mədəniyyəti (orta tunc dövrü) və Xocalı-Gədəbəy mədəniyyəti (son tunc və ilk dəmir dövrü) arxeoloji abidələrinin mövcudluğu ümumi Qafqaz miqyasında xüsusi əhəmiyyətə malikdir. Qarabağ ərazisi ilk olaraq yəni e.ə III-VIII əsrlərdə Albaniya dövlətinin tərkibinə daxil idi.

"Ərəb işğalları Azərbaycanın tarixi-siyasi coğrafiyasına ciddi təsir göstərmişdir. İlk növbədə Qafqaz Albaniyasının ərazisi ərəb müəllifləri tərəfindən Arran adlanmağa başladı. İlk vaxtlarda Albaniya termini ilə yanaşı Arran termini ilə də şimali-şərqdə Dərbənddən tutmuş Tiflisə, cənubda və cənubi qərbdən araz çayına qədər olan ərazi nəzərdə tutulmuşdu. Son orta əsrlər Arranı isə nisbərən kiçik ərazini Kür və Araz çayları arasındakı torpaqları əhatə etmişdir. Ərəb istilalarının mənfi təsirinə baxmayaraq, onun nəticələri müəyyən mənada Azərbaycan xalqının taleyində müsbət rol oynamışdır. Belə ki, ərəblərin gəlməsi ilə tarixi Atropatena və Albaniya əraziləri birləşərək vahid Azərbaycan ərazisinə çevrilmiş və "Azərbaycan" məvhumu meydana gəlmişdir. Bununla belə hələ VIII əsrin ortalarından başlayaraq ərəb müəllifləri Arran-Albaniya ərazisindən danışarkən onu Azərbaycanla əlaqələndirirdilər" (9, s. 46-47). Xilafətin zəifləməsi prosesinin baş verməsi nəticəsində (9-cu yüzilliyin

sonlarına yaxın) Azərbaycan ərazisində müstəqil feodal dövlətlərin yaranmasına səbəb olmuşdur. Məsələn, IX-XI əsrlərdə Sacilər, Salarilər, Şəddadilər, XII-XIII əsrlərdə Eldənizlər, həmçinin XIV-cü əsrlərdə isə Hülakilər dövlətləri. "Qarabağ ərazisi türk sülaləsinin hökmranlıq etdiyi Sacilər dövlətinin tərkibində böyük bir regionu təşkil edirdi. Bu zaman Qarabağ regionu, xüsusilə onun inzibati mərkəzi olan Bərdə surətlə inkişaf edirdi. Qarabağın qədim və böyük şəhəri olan Bərdə də Sacilərin hakimiyyəti dövründə öz əzəmətini saxlayan nəhəng sənət və ticarət ocağı, eyni zamanda, siyasi və mədəni mərkəz idi. Salarilərin hakimiyyətinin ilk illərində mərkəzi bölgələrdən biri kimi Qarabağın iqtisadi, sosial və mədəni inkişafı yüksək səviyyəyə qalxdı" (5, s. 68-69). Qarabağ ərzisi 12-ci yüzilliyin əvvəllərində Eldənizlər, sonrakı yüzilliklərdə isə artıq Hülakilər dövlətinin daxilində mühüm strateji əhəmiyyətə malik ərazi kimi  şöhrət qazanmışdır.

""Qarabağ" sözü "xalq və bağ", "böyük bağ" mənasını kəsb edir. "Arran Qarabağı" terminin ilk dəfə Fəzlullah Rəşidəddinin "Came əl-təvarix" əsərində 1284-cü ilin hadisələrindən bəhs olunarkən təsadüf edilir (10, s. 170). Bu mənbədə tədqiqat zamanı daha da lazımlı vacib məqamlara nəzər yetirilmişdir. Müəllif, eləcə də, dövrün tarixçiləri bu ərazini "Arran Qarabağı" (Qarabağ-e Arran) adlandırmaqla onu başqa Qarabağlardan, ilk növbədə Türkmənistanın cənubi-şərq və Əfqanıstanın şimali-qərb ərazilərində mövcud olmuş "Baqdis Qarabağı"ndan fərqləndirmək istəmişlər" (11, s. 194). Tarixə nəzər salarkən məlum olur ki, Azərbaycanın Qarabağ bölgəsi XV əsrdə  Qaraqoyunlu-Ağqoyunlu, XVI əsrdən Səfəvilər dövlətinin tərkibinə daxil idi. Səfəvilər dövləti hakimiyyət illərində bir neçə dəyişikliklər aparmışdır ki, bunlardan da biri yeni yaranmış inzibati-ərazi vahidlərindən – Qarabağ bəylərbəyliyi idi. Qeyd edək ki, bu bəylərbəyliyin mərkəzi Gəncə şəhəri sayılırdı. Səfəvilər dövlətinin zəifləməsi və süqutundan sonra Nadir şah hakimiyyətə gəldi. Nadir şahın hakimiyyəti dövründə (1736-1747) Qarabağ bəylərbəyliyi hələ də növcud idi. Nadir şahın 1747-ci ildə ölümündən sonra onun yaratdığı imperiya parçalanaraq müstəqil feodal dövlətlər yaranmasına səbəb oldu.

"Keçmiş Qarabağ bəylərbəyliyinin yerində iki müstəqil xanlıq – Gəncə və Qarabağ xanlıqları meydana gəldi. Kiçik Qafqaz dağlarının cənub-şərqində yerləşən Qarabağ xanlığının sərhədləri Araz çayından göyçə gölünədək olan əraziləri, Tərtər çayından başlayaraq bütün düzənlik və dağlıq Qarabağı, Zəngəzuru, Bərgüşadı əhatə etməklə, Mehri, Tatev və Sisiana qədər uzanırdı. Xanlığın banisi Pənahəli xan idi (1747-1763). Hər an gözlənilən hücum təhlükəsini nəzərə alan xan 1748-ci ildə "Bayat", 1751-ci ildə "Şahbulaq", 1756-1757-ci ildə sonralar "Şuşa" adlandırılan Pənahabad qalalarını inşa etdirmişdir. Üç tərəfdən sıldırım qayalarla əhatə olunmuş Şuşa qalası XVIII əsrin ikinci yarısında Qarabağ xanlığını ələ keçirməyə çalışan düşmənlərin hücümlarının qarşısının alınmasında misilsiz rol oynamışdır. Şuşa şəhəri yarandığı dövrdən həm də Qarabağın siyasi, inzibati, iqtisadi və mədəni mərkəzi rolunu oynamışdır. Qarabağ xanlığı İbrahimxəlil xanın hakimiyyəti dövründə (1763-1806) daha da möhkəmlənərək bütün cənubi Qafqazın ən güclü dövlət qurumlarından birinə çevrilmişdi" (8, s. 17).

"General sisianov Gəncə yaxınlığındakı Kürək çayının sahilinə gəldi. İbrahimxəlil xanda buraya gəldi və 1805-ci ilin mayın 14-də Sisianovla görüşdü. Görüşdə müqavilə imzalandı" (4, s. 21-22) (Kürəkçay müqaviləsi – A.Ə). Qeyd edək ki, bu görüş haqqında da tarixi mənbələrdə kifayət qədər məlumatlar mövcuddur. Qarabağ xanlığında 1822-ci ildə köhnə idarəçilik ləğv edilərək, komendantlıqlarla əvəz edildi" (4, s. 100). Qarabağ bölgəsi tarixin bütün dövrlərində yadelli işğalçıların hücumlarına məruz qalaraq müstəmləkə altında saxlanılaraq talan edilmişdir. Ermənilərin 1988-1993-cü illər Qarabağ ərazisini viran qoyması Qarabağın mədəniyyətinə, siyasi-inzibati, həmçinin iqtisadiyyatına, sosial-ictimai həyatına meyarlara sığmayan dərəcədə zərbə vurmuşdur.

İctimai mədəni vəziyyəti

Azərbaycanın Qarabağ bölgəsi 30 ilə yaxın müddət ərzində işğala edilmişdir. "İşğal altında olan ərazilərdə 808 klub, 4,6 milyon kitab fondu olan 927 kitabxana, 22 muzey və onların filialları, 85 uşaq musiqi məktəbi və onların filialları, 4 teatr, 100 min qiymətli eksponatı olan 4 şəkil qalareyası, 2 konsert müəssisəsi, 1892 mədəniyyət və incəsənət binası talan edilib dağıdılmışdır. Zəbt olunmuş torpaqlarda Azərbaycanın mədəni irsinin çoxsaylı və dəyərli abidələri erməni terroru təhlükəsi ilə üzüzə qalmışdır. İşğal olunmuş ərazilərdə Azərbaycan xalqının çoxəsirlik tarixinin bütün mərhələlərini özündə əks etdirən dünya əhəmiyyətli 13 (onlardan 6-sı memarlıq, 7-si arxeoloji), ölkə əhəmiyyətli

292 (119 memarlıq, 173 arxeoloji), yerli əhəmiyyətli 330 (270 memarlıq, 22 arxeoloji, 23 bağ-park və xəritə abidələri, 15 dekorativ xalq sənəti örnəkləri) və başqa tarix və mədəniyyət abidələri qalmışdır" (3, s. 10).

Həmçinin düşmən tərəfindən işğal edilən Şuşa şəhəri Azərbaycana əvəzsiz musiqi şedevrləri bəxş etmişdir. Burada Azərbaycanın professional musiqisinin bilicisi dahi Üzeyir Hacıbəyovun, Mir Möhsün Nəvvabın, əvəzsiz tarzən Qurban Primovun, klassik vokal sənətinin banisi Bülbülün ev muzeyləri talan edilmişdir.

**Coğrafi - iqtisadi vəziyyəti**

"Qarabağda təbiətlə ülfət, insanın varlığını, yaranışını təmin edən dörd ünsürə - suya, oda, torpağa, havaya sitayiş qədim əcdadlarımızın Tanrıya tapınmaq, Tanrı dərgahına ucalmaq inam – arzu-istəyinin ifadəsi kimi bu gün də birbaşa və semantik mahiyyətini qoruyub-saxlayır" (7, s. 37). "Qarabağda çoxsahəli təsərrüfatın tərəqqisi sənətkarlığın da erkən meydana gəlməsinə və inkişafına təkan vermişdir. Əsas xammal sayılan yun, ipək, pambıq toxuma istehsalına geniş meydan açmışdır. Mənbələr xəbər verir ki, bu diyar hələ qədim vaxtlardan həm də metallurgiya və metal əşyalar istehsalı üzrə mərkəzlərdən sayılırdı (Arran Qarabağ, Gədəbəy).

Musa Kalankaturlu yazır ki, "burada dəmir, mis, qızıl, gümüş hasilatı inkişaf etmişdir. Mahir peşəkar ustalar dəmirdən silah, əmək alətləri (qılınc, xəncər, balta, oraq, bıçaq və s.) qiymətli metaldan isə zinət və məişət əşyaları (sırğa, üzük, qolbağı, boyunbağı, kəmər, diadema, piyalı, boşqab, vaza, qənd qabı və s.) düzəldirdilər. Qarabağlılar dulusçuluqlada məşğul olurdular. Qarabağda aparılmış arxeoloji qazıntılar zamanı tapıntılar sənətkarlığın bu diyarda hələ erkən-orta yüzilliklərdə (3-cü) başlayaraq yüksək inkişafa çatdığını göstərir" (6, s. 12-13).

Qarabağ torpağı və onun təbii-coğrafi şəraiti haqqında da mənbələrdə maraqlı məlumatlar verilir. Rzaqulu bəy Mirzə Camal oğlu bunu xüsusi bir bölmədə, ətraflı təsvir etmişdir. "Yüzilliklər boyu qonşu qonşu ölkələrin Qarabağı ələ keçirmək üçün can atmalarına birinci növbədə buranın təbii sərvəti, ab-havası, münbit torpaqları, sulu çayları, sərin bulaqları, sıx meşələrisəbəb olmuşdur. Təsadüfi deyildir ki, Əmir Teymur yayda dincələrkən məhz Qarabağı seçmiş, indiki Ağdam razisində iqamət qurmuşdur" (5, s. 93). Qarabağın zəngin təbii xammal ehtiyatına - mineral boyaqlar, müxtəlif yabanı lifli bitkilər, yun, gön-dəri, kətan, pambıq, ipək və s. malik olması bölgədə qədim zamanlardan müxtəlif sənət sahələrinin, meydana gəlməsi həmçinin sənətkarlığın da xeyli inkişaf etməsi üçün əlverişli şərait yaratmışdır. Qarabağın iqtisadi-coğrafi şəraiti, zəngin mədəni tarixi, füsunkar təbiəti, həmçinin iqlim xüsusiyyətlərinə və relyefinə görə də bölgənin ərazisinin dağlıq, dağətəyi və düzənlik hissələrdən ibarət olması – bir sözlə burada insanların yaşaması üçün hər cür şəraitin olması demək idi.

"Əlverişli iqlim şəraiti, münbit torpaqların bolluğu Qarabağda kənd təsərrüfatının müxtəlif sahələrinin inkişafına təkan verirdi. Kənd təsərrüfatının aparıcı sahəsini əkinçilik təşkil edirdi. Buğda, arpa, darı, pərinc, mərci, çəltik kimi dənli bitkilər Qarabağın təsərrüfat həyatında mühüm yer tuturdu. Əsas ərzaq məhsulu kimi buğdaya təlabatın böyük olması onun daha geniş miqyasda becərilməsinə gətirib çıxarmışdır" (8, s. 20). Qarabağ ərazisində əsas ümumişlək sahələr - kənd təsərrüfatı sahələri pambıqçılıq, üzümçülük, heyvandarlıq, həmçinin bölgədə baramaçılıq, tütünçülük, arıçılıq və taxılçılıq da geniş inkişaf etmişdir. Kənd təsərrüfatının əsas aparıcı sahəsini əkinçilik təşkil edirdi. Belə ki, bölgənin təsərrüfat həyatında buğda, arpa, çəltik, bostan və tərəvəz məhsullarının da əkib becərilməsi ənənəvi hal almışdır. Qarabağ ərazisində tarixən tut bağlarının salınması (həm ümumi əkin sahələrində, həm də fərdi əkin sahələrində) xam ipək istehsalının- baramaçılığın inkişafı üçün zəmin yaratmışdır. Bunun nəticəsində də bölgədə baramaçılıq təsərrüfat həyatının aparıcı sahələrindən birinə çevrilmişdir. Bu kənd təsərrüfatı sahələrinin hər birinə dair əmək nəğmələri yaranmış şifahi şəkilə dildən-dilə ötürülərək variantlı şəkildə inkişaf etmişdir. Qarabağ bölgəsi həm də pambıq istehsalının mühüm mərkəzlərindən biri olması ilə də şöhrət qazanmışdır. Əlverişli iqlim şəraitinin və münbit torpaqların bolluğu bölgədə pambığın geniş sahələrdə becərilməsi və yetərincə mənfəət əldə edilməsinə imkan verirdi. Bölgənin iqtisadi həyatında bağçılıq, üzümçülük, bostançılıq da mühüm yer tutduğundan bu sahələrin də hər birinə aid əmək nəğmələri yaranmışdır ki, bu nəğmələr hal-hazırda da zəngin folklor incisi olaraq öz əhəmiyyətini qoruyub saxlayır. Həmçinin yaylaq və qışlaq

ərazilərin bolluğu Qarabağda heyvandarlığın inkişafına geniş imkanlar açmışdır ki, bununlada əlaqədar olaraq xeyli sayda holavarlar, sayaçı nəğmələri, çoban nəğmələri, ilxı, dəvə-karvana aid nəğmələr yaranmışdır. Qarabağ bölgəsi tarixən tükənməz sərvətlərə malik olmuşdur. Respublikamızın digər bölgələri kimi Qarabağda da toxuculuq mühüm sənətkarlıq sahələrindən birinə çevrilmişdir. Xammal ehtiyatlarının bolluğu bölgədə pambıq parça istehsalının xüsusilə yüksək səviyyədə inkişafına təkan vermişdir. Burada istehsal edilən məmulatların bir hissəsi qonşu bölgələrə, həmçinin ölkə xaricinə də ixrac edilirdi. Bununla yanaşı yerli əhalinin də tələbatı ödənilirdi. Elə bunun nəticəsində də parça toxunuşu ilə əlaqədar bir çox nəğmələr yaranmışdır.

“Qarabağ hər şeydən əvvəl özünün yüksək bədii zövqlə toxunmuş gözəl xalçaları ilə məhşur idi. Bölgədə yetişdirilən müxtəlif qoyun cinslərinin xalçaçı ustaları bol və yüksək keyfiyyətli yunla təmin etməsi, ərazinin təbii boyaq bitkiləri ilə zəngin olması bu sənət sahəsinin inkişafına güclü təkan verirdi. Azərbaycanın əksər bölgələrində olduğu kimi, Qarabağda da xalçaçılıq daha çox qadın əməyinə əsaslanırdı. Evdar qadınlar asudə vaxtlarını toxuculuğun müxtəlif sahələrinə, o cümlədən xalça toxumağa sərf edirdilər” (8, s. 22). Qarabağ bölgəsində də respublikamızın digər bölgələrində olduğu kimi müxtəlif növlərə malik olan xalça-palaz məmulatları xüsusən iki qrupa - xovlu və xovsuz parçalara bölünürdü. “Xovlu məmulat ölçü, forma və vəzifəsinə görə xalı, gəbə, xalça, canamaz olmaqla müxtəlif növlərə ayrılır. Bununla yanaşı keçmişdə Azərbaycanın bəzi zonalarında “dəst xalça” toxumaq dəb halını almışdı. Vaxtilə Qarabağın dəst xalçalarına xalı (uzunu 5-7, eni 2 arşın), bir cüt yan (uzunu xalının boyuna müvafiq, eni 1 arşın) daxil idi. Xovsuz xalça məmulatı, həmçinin istehsal texnikasına və istifadə məqsədinə görə palaz, kilim, vərni, sumaq, şəddə, ladı, çul, məfrəş, çuval, xurcun, heybə, duz torbası və s. olmaqla müxtəlif növlərə ayrılır (1, s. 424). Qarabağda xalça növlərinin çoxalması həmçinin parça toxuculuğunun da yüksək səviyyəyə çatması artıq bu sənətkarlıq növü ilə sıx əlaqədə olan boyaqçılıq sənətinin də inkişafını surətləndirirdi.

“Maraqlıdır ki, folklorda qəribə, sehirli bir fəhm, intiusiya da var. Qarabağda yaranan folklor nümunələrinin “möhürü” ilk növbədə dilin zənginliyidir. Məhz bu xüsusiyyətləri ilə Qarabağ folklor nümunələri digər regionlarda yaranan nümunələrdən asanlıqla seçilir. Qarabağın coğrafi əhatə hüdudları kimi, onun “bədii ərazisi” də tarix boyu dəyişmiş, əvvəllər indi olduğundan qat-qat geniş olmuşdur. Bərdə, Beyləqan, Göyçə, Gəncə, Şuşa müxtəlif illərdə Qarabağın, bütövlükdə Azərbaycanın folklor, şer, mədəniyyət mərkəzləri olmuşlar. Qarabağda bir-biri ilə yarışan şerin, təbiətin və musiqinin qaynağından yaranan bu kamilliyi və közəlliyi buradan keçən dünya səyyahları – alim, sənətkar və şair ziyalılar – dəfələrlə etmişlər. Şuşanın füsunkar hüsnünü S.Yesenin bədii sözdə, A.Düma, Dubua – de Moppere memuarda, V.Vereşşagin tablolarda poeziyaya çevrilmişdir” (2, s. 16- 20). Qeyd olunanlar bir daha sübut edir ki, Qarabağın tarixi, mədəniyyəti, musiqisi çox zəngindir.

“Tarixi Qarabağın folklor stixiyasını, bütünlükdə ədəbi mühitini o dövrdə bütün regiona yayılmış xalq ozan və nağılçıları, şair və aşıqlar, musiqi və şer məclisləri, hamısı bir yerdə yaradırdılar. Sarı Aşıq, Aşıq Pəri, Məhəmməd bəy Aşıq, Ağa bəyim ağa, Məhəmməd bəy Cavanşir, Aşıq Zəngilani, Baba bəy Şakir, Qasım bəy Zakir, Cəfərqulu xan Nəva, Aşıq Valeh və s. Bədii intibah universal səciyyə daşıdığı və milli mədəniyyətin bütün sahələrini əhatə edirdi. XIX əsrin son rübündə təkcə Şuşada onlarla elm, sənət və ədəbiyyat yönümlü məclis fəaliyyət göstərirdi – musiqişünaslar, xəttatlar, xanəndələr, nüsxəbəndlər, nəqqaşlar, memarlar... Bütün bunlar yalnız xalq-folklor sənəti dairəsində yox, Azərbaycanın bütövlükdə mənəvi mədəniyyəti tarixində Qarabağa təkrarsız, unikal tarixi mövqe təmin etmiş olur. Folklor xalqın milli mənşəyini, soykökünü, qan yaddaşını, mənəvi-əxlaqi dəyərlərini nişan verən şifahi söz sənəti xəzinəsidir” (2, s. 20-22).

**Nəticə**

Bu gün hər bir azərbaycanlı böyük fəxarət hissiylə qeyd edir ki, Azərbaycanın Qarabağ bölgəsi işğaldan azad edilmişdir. 27 sentyabr 2020-ci ildə Azərbaycan ordusunun Ermənistan silahlı qüvvələrinə qarşı əks-hücum əməliyyatı nəticəsində 44 gün davam edən vətən müharibəsi müzəffər Azərbaycan ordusunun qələbəsi, düşmənin kapitulyasiya aktını qəbul etməsi ilə nəticələndi. Rəşadətli Azərbaycan ordusu 44 gün ərzində nail olduğu qələbə uzun illərdir ki, region üçün böyük təhlükə mənbəyi olan Dağlıq Qarabağ münaqişəsinin uğurla və ədalətlə həll edilməsi həmçinin, yaşadığımız

bölgədə sülhə və təhlükəsizliyə əvəzsiz töhfə oldu. Bu böyük qələbə Ali Baş Komandan İlham Əliyevin Ermənistanın hərbi təcavüzünə qarşı məharətlə nümayiş etdirdiyi müdrik diplomatiya, müharibənin fəal fazasında təmkin və qətiyyət nümayiş etdirməsi, son məqsədə çatmaq üçün qəti inamı həmçinin, mübariz Azərbaycan ordusunun yenilməzliyi, iradəsi sayəsində əldə edilib. Biz qələbə həm də ədalətin təntənəsi, beynəlxalq hüququn norma və prinsiplərinin yerinə yetirilməsinin bariz nümunəsidir.

Bu gün Azərbaycanın qələbəsi nəhəng potensialı, artan geostrateji əhəmiyyəti olan bir bölgə üçün perspektivli və nadir imkanlar, inklüziv və hərtərəfli regional əməkdaşlıq, davamlı inkişaf üçün parlaq fürsətlər yaradır. Həmçinin Qarabağın tacı olan Şuşanın və digər ətraf rayonların işğaldan azad olunması regionda mədəni mühitin inkişafına zəmin yaradır ki, bu da ümumtürk arealının gələcək perspektivlərindən xəbər verir.

## ƏDƏBİYYAT

**Azərbaycan dilində**

1. Azərbaycan etnoqrafiyası. 3 cilddə.1-ci cild, B:, Elm, 1988, 454 s.
2. Azərbaycan folkloru antologiyası, V kitab (Qarabağ folkloru), B:, Səda, 2000, 414 s.
3. Azərbaycan Mədəniyyət və turizm Nazirliyi. Qarabağ-irsimizin əbədi yaddaşı. B:, Rəqəmli dövr, 2008, 379 s.
4. Azərbaycan tarixi. Yeddi cilddə. IV cild (XIX əsr). B:, Elm, 2007, 504 s. + 48 s. illüstrasiya
5. Hacıyev Q. Qarabağ tarixi. B:, Təknur, 2014, 225 s.
6. Qarabağlı A. Qarabağ, onun qədim tayfaları və toponimləri. B:, Mürtəcim, 2008, 480 s.
7. Mehrəliyev E. Qarabağ folklor mühiti: uzaq tarixdən bu günümüzə qədər. B:, Nurlan, 2008, 228 s.
8. Muradov V. Qarabağ bölgəsinin xalçalılıq tarixi. B:, Elm, 2015, 564 s.
9. Piriyev V.Z. Azərbaycanın tarixi-siyasi coğrafiyası. B:, Müəllim, 2006, 148 s.

**Rus dilində**

10. Фазлуллах Р. Джами ат-таварих. Том III.Составитель научно-критического текста на персидском языка А.К.Арендса. Б:, Наук Азерб, 1957, 362+727с.
11. Фасих Х. Муджмал-и Фасихи (Фасихов свод). Перевод, предисловие, примечания и указатели Д.Ю.Юсуповой. Т:, ФАН, 1980, 346 с.

***Sənətşünaslıq üzrə fəlsəfə doktoru, AMK-nın müəllimi,***
***E-mail: aygulahmadova8919@gmail.com***

**Aygul Ahmadova**

## A STUDY OF THE KARABAGH REGION OF AZERBAIJAN IN THE HISTORICAL-CULTURAL CONTEXT

The study of the development, culture, and history of the Karabakh region of Azerbaijan is always in the focus of attention. The Karabakh region of Azerbaijan, which has a favorable geographical and economic environment, also attracts attention with the richness of its musical and cultural environment. Also, in terms of musical folklore, the Karabakh region is very rich. The development of various musical genres here increases the attention of researchers to Karabakh. Researching the evolution process of the musical cultural environment of Karabakh, its influence on the performing art from different perspectives, new facts attract the attention of researchers. In this respect, in this article, we have tried to trace the historical and cultural development process of the Karabakh region of Azerbaijan.

**Keywords:** *Azerbaijan, Karabakh, history, ethnography, culture, music, folklore, genre*

**Айгуль Ахмедова**

## ИЗУЧЕНИЕ КАРАБАХСКОГО РЕГИОНА АЗЕРБАЙДЖАНА В ИСТОРИКО-КУЛЬТУРНОМ КОНТЕКСТЕ

Изучение развития, культуры и истории Карабахского региона Азербайджана всегда находится в центре внимания. Карабахский регион Азербайджана, имеющий благоприятную географическую и экономическую среду, также привлекает внимание богатством своей музыкальной и культурной среды. Также в плане музыкального фольклора Карабахский регион очень богат. Развитие здесь различных музыкальных жанров повышает внимание исследователей к Карабаху. Исследуя процесс эволюции музыкально-культурной среды Карабаха, ее влияние на исполнительское искусство с разных сторон, внимание исследователей привлекают новые факты. В связи с этим в данной статье мы попытались проследить процесс историко-культурного развития Карабахского региона Азербайджана.

**Ключевые слова:** *Азербайджан, Карабах, история, этнография, культура, музыка, фольклор, жанр*

*AMEA-nın müxbir üzvü Cəfər Qiyasi tərəfindən təqdim edilmişdir*

**İlk daxilolma tarixi: 17.01.2025**
**Son daxilolma tarixi:15.02.2025**